# “İstək” liseyi təhsilimizin ön sıralarında

Hər bir dövlətin siyasi-iqtisadi, sosial və mədəni inkişafını ölkənin təhsili, təlim-tərbiyəsi müəyyən edir və eyni zamanda cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsi olan təhsil onun mənəvi dəyərlərini də formalaşdırır. Buna görədir ki, müstəqilliyini qazanmış hər bir ölkə onu qorumaq, möhkəmləndirmək, inkişaf etdirmək, əbədiləşdirmək və təhlükəsiz yaşaya bilmək üçün, ilk növbədə, müasir tələblərə cavab verən təhsil sistemi qurur və bu təhsilin inkişafına xüsusi diqqət göstərir. Müstəqil dövlətimizin təhsil quruluşunun da beynəlxalq təhsil sisteminə, dünya təcrübəsinə nəzərəçarpacaq dərəcədə inteqrasiyası, milli təhsilimizdə keyfiyyət üstünlüyünün əldə edilməsi üçün lazımi tədbirlərin görülməsi dinamik şəkildə davam etdirilir. Bu mənada ölkə başçısı İlham Əliyevin verdiyi qərarlar, imzaladığı sərəncam və fərmanlar, dövlət proqramları milli dövlətçiliyimizin, xalqımızın tərəqqisinin əsasını təşkil edən müasir təhsilin, elmin inkişafına hesablanıb. Fəxrlə demək olar ki, bu gün ölkədə keyfiyyətli təhsil sisteminin qurulması və bu sahədə müsbət nəticələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılır.



Azərbaycanın milli təhsil brendi olan “İstək” liseyi də kadrlarının 20 illik pedaqoji təcrübəsinə söykənərək bu gün ölkəmizdə milli təhsilin inkişaf etdirilib dünyəvi təhsil ənənələrinin təməl prinsipləri üzərində qurulması istiqamətində aparılan dövlət siyasətinə öz layiqli töhfələrini verir.

“İstək” liseyi Təhsil Nazirliyinin 074503 saylı lisenziyası əsasında respublikanın Bakı (Əhmədli, Xalqlar Dostluğu, Nərimanov və Gənclik), Quba, Şirvan, Lənkəran, Agdaş, Mingəçevir və Gəncə şəhərlərində fəaliyyət göstərən ümumtəhsil müəssisəsidir. Rus və Azərbaycan dili bölmələri üzrə 1-11-ci sinif şagirdlərinin təhsil aldığı “İstək” liseyi İB (International Baccalaureate\Beynəlxalq Bakalavriat) Diplom Proqramına (DP) namizəd məktəb, rəsmi olaraq nəticələri 175 ölkənin universitetlərində qəbul olunan SAT imtahanı mərkəzidir. Bu ilin oktyabr ayından isə lisey “Kembric məktəbi (Cambridge school)” statusuna malikdir.

İstər maddi-texniki baza, təlimin keyfiyyəti, istərsə də tərbiyə sahəsində “İstək” liseyinin milli təhsilimizin ön sıralarında mövqe tutması mütəmadi olaraq pedaqoji kollektivin il ərzində təkmilləşdirilməsi, yenilikləri öz işlərinə tətbiq etməsi və zamanı qabaqlamaq cəhdləri ilə birbaşa bağlıdır. Pedaqoji kollektiv bu gün yetişdirdikləri gənclərin yalnız elmli, bilikli deyil, həm də qazandıqları elmi, biliyi vətəni və xalqı yolunda istifadə edən vətənpərvər ruhda böyümələri üçün fədakarcasına çalışırlar. Liseyi fərqləndirən digər göstərici isə bu təhsil müəssisəsində sabahımız, gələcəyimiz olan gənc nəslə aşılanan tərbiyədir.

Burada əsl insan, əsl vətəndaş yetişdirmək, şagirdlərdə vətənə bağlılıq, vətənpərvərlik tərbiyəsinin beynəlmiləlçiliklə paralel təlqin edilməsi, onların milli-əxlaqi dəyərlərimizə bələd olmaları və s. qarşıda bir vəzifə olaraq durur və pedaqoji kollektiv bu işin öhdəsindən bacarıqla gəlir.



“İstək” liseyi təlim və tərbiyə işinin təşkilində ailə - məktəb əməkdaşlığına mühüm əhəmiyyət verir. Lisey tərəfindən mütəmadi olaraq bu əməkdaşlığı inkişaf etdirən proqram və tədbirlər həyata keçirilir.



Liseydə tədris prosesinin yerli və xarici müəllimlər tərəfindən dövlət təhsil standartları, beynəlxalq kurikulumların tətbiqi ilə aparılması şagirdlərə yerli ali təhsil müəssisələri ilə yanaşı, xarici ölkələrin ali təhsil müəssisələrinə qəbulda yüksək nəticələr əldə etməyə imkan verir. Bunun nəticəsidir ki, məzunlar “King's College of London”, “University of Toronto”, “University of Waterloo”, “İnternational University in Geneva”, “Nanyanq Techonological University” kimi universitetlərdə təhsil alır və eyni zamanda dövlətimizi, xalqımızı həmin ölkələrdə təmsil edirlər.

**Liseyin icraçı direktoru Anar Məmmədov** söhbət zamanı bu barədə ətraflı məlumat verdi: *“Şagirdlərimizin xarici ölkələrdəki ali təhsil müəssisələrinə qəbulda əldə etdikləri yüksək nəticələr “İstək” liseyində tədris prosesinin dövlət təhsil standartları və beynəlxalq kurikulumlar əsasında həyata keçirilməsi ilə birbaşa bağlıdır. Belə ki, liseyimizdə 9-cu sinifdən başlayaraq şagirdlərin seçdikləri ixtisaslar xüsusilə diqqət mərkəzində saxlanılır, müəllimlərimiz tərəfindən ixtisas fənlərinin mənimsənilməsinə şagirdlərə yaxından kömək göstərilir. Onu da qeyd edim ki, 2014-2015-ci tədris ilində 238 məzunumuzun 98%-i tələbə adını qazanmışdır ki, bu göstəricinin 30%-dən çoxu ABŞ, Kanada, İsveçrə, Böyük Britaniya, Almaniya, Sinqapur, Türkiyə kimi dünyanın ən qabaqcıl ölkələrinin universitetlərinə qəbul olunan şagirdlərimizin payına düşür. Bu ildən isə şagirdlərin xarici ali təhsil müəssisələrinə qəbul prosesinin təkmilləşdirilməsi istiqamətində liseyimizdə bir sıra mühüm işlərə başlanılıb. Ən başlıcası artıq kitabxanamız Oksford, Kembric və digər dünyanın məşhur olan universitetlərinin proqramlarına müvafiq yeni tədris vəsaitləri ilə zənginləşdirilib. Şagirdlərin mənimsəmə qabiliyyətini artıran kompüter və təbiət elmləri laboratoriyalarımız da təkmilləşdirilib”.*

Anar Məmmədov bununla bərabər, dünya səviyyəli universitetlərin qapılarını şagirdlərin üzünə açan daha mühüm bir amildən - dünya olimpiadalarında şagirdlərin iştirakından, bunun vacibliyindən də danışdı: *“Tədris prosesində fərdi yanaşma, bilik və bacarıqların dəyərləndirilməsi, yerli və beynəlxalq olimpiadalarda şagirdlərin iştirakı onların hərtərəfli inkişafını təmin edir. Dövlət təhsil standartları və beynəlxalq proqramların birgə tətbiqi şagirdlərin həm respublika səviyyəli, həm də beynəlxalq olimpiadalarda yüksək nəticələr əldə etməsinə imkan yaradır. Belə ki, şagirdlərimiz bu il ABŞ, Argentina, Yunanıstan, Tayland, Danimarka, Hindistan, Rumıniya, Qazaxıstan, Çin və başqa ölkələrdə keçirilən olimpiadalarda Azərbaycanı təmsil etmiş və olimpiadaların əksəriyyətindən Vətənə medal ilə dönmüşlər. Bir sözlə, 2014-2015-ci dərs ilində şagirdlərimiz beynəlxalq olimpiadalarda 31, respublika olimpiadalarında isə 28 medal qazanıblar. 9 məzunumuz isə tədris ilinin yekunlarına görə Təhsil Nazirliyi tərəfindən qızıl və gümüş medallarla təltif olunub. Bütün bu göstəricilər isə böyük zəhmətin nəticəsində əldə olunub. Bununla yanaşı, liseyin bütün təhsil müəssisələrində müasir tədris təlim metodları ilə bərabər beynəlxalq standartlara uyğun idarəetmə sistemi böyük uğurla həyata keçirilir. Cari ildə liseyin İSO - 9001 (Beynəlxalq Keyfiyyətli İdarəetmə Sistemi) vəsiqəsi alması bunun bariz nümunəsidir”.*



“İstək” liseyi müasir infrastrukturu, maddi-texniki bazası və tətbiq etdiyi tədris texnologiyaları vasitəsilə valideyn və şagirdlərin rahatlığını təmin edir. Belə ki, liseyin yataqxana şəraiti bütün respublika ərazisindən 1-11-ci sinif şagirdlərinin Azərbaycan və rus dili bölmələri üzrə bu liseydə oxumasına imkan yaradır. Liseyin ali məqsədi, qərar qəbulu prosesinin kollektiv ilə birgə aparılması liseyin bütün kampuslarında təhsilin keyfiyyətinin bərabər səviyyədə olmasını təmin edir. Liseyin düşərgələri, idman meydançaları, klub, dərnək və proqramları vasitəsilə şagirdlər asudə vaxtlarını səmərəli keçirir və dərsdən əlavə bacarıqlar əldə edirlər.

Bəli, bu gün “İstək” liseyi milli təhsil sahəsində təqdir ediləsi və nümunə götürüləsi təhsil metodları ilə ölkəmizdə fəaliyyət göstərən liseylər arasında ön cərgələrdə dayanır. Bu təhsil müəssisəsi Azərbaycanın xoş gələcəyi naminə keyfiyyətli kadr hazırlığı ilə dövlət təhsil siyasətinə öz layiqli töhfələrini verir.

**Mehparə ƏLİYEVA,**
**“Respublika”.**